XALQ QƏZETİ 25 noyabr 2018-ci il, bazar

# *Əlilliyi olan şəxslər:* fiziki məhdudiyyətdən sosial inteqrasiyaya



**❒ Azərbaycanda sosial cəhətdən həssas qrupların hüquqlarının etibarlı müdafiəsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, dolğun həyat şəraitinin təmin edilməsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi ilbəil genişlənməkdədir. Ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının təminatı dövlətin diqqət mərkəzindədir. Onların sosial müdafiəsi, tibbi-sosial reabilitasiyası və cəmiyyətə fəal inteqrasiyası istiqamətində aparılan işlər göz önündədir. Dövlətimiz əlilliyi olan hər bir şəxsə hörmət və qayğı ilə yanaşır, istedadını üzə çıxarmaq, onların cəmiyyətə inteqrasiya olunması üçün bütün imkanlar açır, bu istiqamətdə hərtərəfli şərait yaradır.**

## *Fiziki məhdudiyyət inkişafa, uğur qazanmağa əngəl ola bilməz*

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan sosial siyasətin və Prezident İlham Əliyevin sosial inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə sosial müdafiə sistemi son illərdə daha da güclənib. Ümumiyyətlə, Azərbaycanın qoşulduğu müvafiq beynəlxalq sənədlər, həmçinin milli qanunvericilik həssas əhali qruplarının sosial hüquqlarının müdafiəsini, o cümlədən sosial xidmətlərlə təmin olunmasını mühüm bir vəzifə kimi qarşıya qoyur. Bu vəzifələrin icrası üçün ölkədə sosial xidmət sisteminin təkmilləşdirilməsi, müvafiq sahədə qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, həssas əhali qruplarının maraqlarına maksimum cavab verən alternativ sosial xidmətlərin yaradılması istiqamətində xeyli tədbirlər görülmüş və bu işlər hazırda da davam etdirilir.

Ölkədə əlilliyi olan bütün şəxslərə, həmçinin sağlamlıq imkanları məhdud uşaqlara sosial müavinətlər, əmək pensiyaları, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri, kompensasiya xarakterli müavinətlər və sosial yardımlardan ibarət aylıq ödənişləri nəzərdə tutan səmərəli sosial müdafiə sistemi fəaliyyət göstərir.

Bu sistem vasitəsilə Azərbaycan hökuməti əlilliyi olan şəxslərin minimum maddi ehtiyaclarını qarşılamaqla bərabər, onların tibbi-sosial reabilitasiyası üçün kompleks tədbirlər həyata keçirir. Ölkənin bütün ərazisini əhatə edən 14 əlillərin bərpa mərkəzi, o cümlədən Respublika Protez-Ortopedik Bərpa Mərkəzi və Heydər Əliyev Fondu tərəfindən yaradılmış Xüsusi Qayğıya Ehtiyacı Olan Uşaqlar üçün Reabilitasiya Mərkəzi fəaliyyət göstərir.

Əlilliyi olan, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına nail olmaq həm də onlar arasında istedadı ilə fərqlənən insanları üzə çıxarmağa şərait yaradır.

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin üzvü Diana Bayramova danışa və eşidə bilmədiyinə baxmayaraq, maraqlı rəsmlər çəkir. Əsərləri Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrdə nümayiş olunub və maraqla qarşılanıb. Diana deyir ki, onun hazırkı durumuna görə heç bir kompleksi yoxdu. O daim öz üzərində çalışdığını, eyni zamanda, daha yaxşı əsərlər çəkməyi qarşısına məqsəd qoyduğunu söyləyir. Diana bununla cəmiyyətə demək istəyir ki, fiziki məhdudiyyəti olan insanlar özlərinə qapanmasın, əksinə cəmiyyətə inteqrasiya olunsunlar və hər zaman öz bacarıqlarını nümayiş etdirmək üçün mübarizə aparsınlar.

Birliyin üzvü olan Allahverdi Əhmədov isə anadangəlmə hər iki gözündən əlil olsa da, öz istedadı ilə fərqlənir. Gözəl şeirlər yazan və qarmon ifaçısı olan qəhrəmanımız yaradılan şəraiti dövlətin onlara göstərdiyi diqqətin bariz nümunəsi kimi dəyərləndirir: "Mənim görmə məhdudiyyətim olsa da, heç zaman ruhdan düşmədim. Şeirlər yazmağa başladım, daha sonra isə qarmon ifa etməyi öyrəndim. Mən əlil olan insanlara demək istəyirəm ki, onlar da mənim kimi ruhdan düşməsinlər , özlərində olan istedadları kəşf etsinlər, bunun üzərində daim çalışsınlar", – deyə qəhrəmanımız bildirir. İstedadı ilə fərqlənən Allahverdi Əhmədov, həm də Sumqayıt Dövlət Universitetinin tələbəsidir.

Ümid Cümşüdov 2-ci qrup əlil olmasına baxmayaraq, Moskva Dövlət Humanitar İqtisad Universitetinə daxil olmuşdur. O da öz üzərində çalışaraq, əlilliyi özü üçün maneə hiss etməmiş, təhsilini davam etdirmişdir. Ümid bildirir ki, onun universitetə daxil olmağının əsas məqsədi oxuduğu müddətdə qazandığı elm, savad sayəsində cəmiyyətə öz töhfəsini verməkdir.





Sağlamlıq imkanları məhdud olan Rövşən Ağatalıbov həyatsevərliyi ilə diqqət çəkir. Bu məhdudiyyətlərə baxmayaraq, o, cəmiyyətə faydalı insan olmağı qarşısına məqsəd qoyub. Rövşənin ayaqları amputasiya olunduğundan əlil arabasına məhkum idi. Onların ailəsində özündən başqa sağlamlıq imkanları məhdud olan daha 2 şəxs var. Onun anası Möhtərəm xanım və qardaşı Elşən də 2-ci qrup əlildir. Lakin bütün bunlara baxmayarq Rövşən və ailəsi həyatla mübarizə apararaq, heç kəsə yük olmamağı qabaqlarına məqsəd qoyublar. Bu yolda isə onlara ən böyük köməyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva edib. Rövşənin əvvəl əlil arabası sonra isə protez ayaqlarla təmin olunmasında fondun göstərdiyi kömək, onun ailəsinə böyük dəstəkdir. Hətta qəhrəmanımız öz kiçik biznesini qurub. "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi də ağır günlərində ona yardımçı olub və hər bir işdə ona kömək göstərib.

Rövşən özünə qapanmamağı, yardım üçün daim kiməsə əl açmamağı, həyata, insanlara daha sıx bağlanmağı, həyatda nəyəsə nail olmaq üçün mübariz olmağı bir çağırış kimi digər əlilliyi olan insanlara çatdırmağı özünə borc bilir.

"Uşaqlıqdan mənim və qardaşımın fiziki məhdudiyyətimiz var. Lakin buna baxmayaraq, qərara gəlib "GülSam" Əlillərin Reablitasiyası İctimai Birliyinin yaratdıq"-Bu fikri deyən fiziki məhdudiyyəti olan Gülnarə Səlimova da dostları kimi mübarizdir.

Müsahibim deyir ki, biz daim mütaliə etmişik, rəsmlə məşğul olmuşuq, müxtəlif əl işlərimiz var. Bir sözlə, heç vaxt boş dayanmamışıq. Qardaşım iki ildir rəhmətə gedib. Mənə iş təklifləri də olub. Lakin təhsillə bağlı heç bir sənətim olmadığı üçün işi rəsmiləşdirmək mümkün olmayıb. Təşkilatı yaradana qədər mən fiziki məhdudiyyətli insanları görməmişdim. "GülSam"ı yaratmaqda məqsədim özüm kimi fiziki məhdudiyyətli insanları bir araya gətimək, onlara stimul vermək olub. İlk olaraq uşaq və valideynlərlə ünsiyyətdə oldum. Məlum oldu ki, fiziki məhduiyyətli uşaqların passiv olmalarına əsas səbəb valideynlərinin onlara düzgün yanaşmamasıdır. Məndə isə bu belə deyil. Mən hər zaman valideynlərimin dəstəyini və inamını hiss etmişəm. Hesab edirəm ki, fiziki məhdudiyyətli uşaqların cəmiyyətə inteqrasiyasına nail olmaq üçün valideynlər maarifləndirilməlidirlər. Cəmiyyətin ən böyük problemlərdən biri valideynlərin öz uşaqlarını ictimai yerlərdən uzaq tutmalarıdır. Bu, hər bir məhdudiyyətli uşaq üçün dəhşətli haldır. Bunu nəzərə alaraq müxtəlif dərnək və kurslar təşkil edirik. Artıq müsbət nəticələr də əldə etmişik. Kurs və dərnəklərimizi bitirən uşaqlar müxtəlif müsabiqələrdə qalib olublar. 14 ildir ki, fəaliyyət göstəririk. Həm dövlətimiz, həm də insanlar bizə dəstək olurlar. Son olaraq demək istəyirəm ki, fiziki məhdudiyyət inkişafa, uğur qazanmağa əngəl ola bilməz. Mübariz olmaq və özünə inam hissi mütləqdir...

Dövlətin əlillərin həyat fəaliyyəti və rahatlığı üçün gördüyü işlərin miqyası son zamanlar daha da artırılıb. Yollarda, ictimai nəqliyyatda əlillərə yaradılmış şərait yaxşılaşdırılıb. Əlillərin rahat hərəkəti üçün küçələrdə, yolüstü və yolaltı keçidlərdə pandusların quraşdırılması, xüsusi vasitələrlə təchiz olunmuş avtobusların alınması qeyd olunanları bir daha sübut edir. Eləcə də, eşitmə qabiliyyətini tam və ya qismən itirmiş əlillərin zəruri informasiya ilə təmin edilməsi, paytaxtda nəqliyyat vasitələrinin hərəkət intensivliyi yüksək olan küçə və prospektlərində gözdən əlillər üçün səsli işıqforların, əlavə yol nişanlarının quraşdırılması, əlillər üçün yaşayış binalarının tikilməsi, onların mənzillə təmin olunması, əlillərin inklüziv, keyfiyyətli təhsil almaları və s. məsələlər dövlətin daim diqqət mərkəzindədir.

Hazırda sağlamlıq imkanları məhdud insanlar dünya əhalisinin təxminən 15 faizini təşkil edir, onların ailə üzvləri də nəzərə alınsa, Yer kürəsində təqribən iki milyard insan əlilliyin yaratdığı problemlərdən əziyyət çəkir.

Azərbaycanın qoşulduğu müvafiq beynəlxalq sənədlər BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası, Dəyişdirilmiş Avropa Sosial Xartiyası, BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası, eləcə də "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunu xüsusilə əlillər və sağlamlıq imkanları məhdud 18 yaşadək və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan uşaqlar üçün keyfiyyətli sosial xidmətlərin təmin edilməsini mühüm bir vəzifə kimi qarşıya qoyur.

Bir sözlə, bu gün Azərbaycan dövlətinin fiziki mədudiyyəti olan şəxslərə həssas münasibəti onların cəmiyyətə inteqrasiyasına hesablanmış yerli və beynəlxalq layihələri həyata keçirməsi bu qəbildən olan vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş addımlardır.



*Ülviyyə VAHİDQIZI,*
*"Xalq qəzeti"*

***Məqalə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***